# VIII SİNİF KİMYA KURSUNDA "KİMYƏVİ HADİSƏLƏR" MƏZMUN XƏTTİNİN ALT STANDARTLARININ REALLAŞDIRILMASI METODİKASI

**Aysəba Zakir qızı Məmmədova**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Ölkəmizdə yeni məzmunlu təhsil sisteminin yaradılması müəllim və şagirdlərin fəaliyyətlərinə müasir tələblər səviyyəsində yanaşılmasını tələb edir. Kurikulum islahatının aparılması nəticəsində qəbul edilən "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu" və "Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları)"sənədləri [1,2] əsasında hazırlanan fənn kurikulumları ilə tədrisin aparılması müəllimlərdən, eləcə də kimya müəllimlərindən bir sıra yeni yanaşma və bacarıqlar tələb edir.

Hazırkı dövrdə təhsilə texnoloji proses kimi yanaşılması müəllimdən texnoloq kimi fəaliyyət göstərməsini tələb edir. Fənn kurikulumunun məzmunun standartlar şəklində verilməsi, nəticənin önə çəkilməsi də müəllimin fəaliyyətinin bu istiqamətə yönəldilməsinə gətirib çıxarır.

Şəxsiyyətyönümlü təhsilin tələblərinə uyğun hazırlanmış kimya fənni kurikulumunda məzmuna uyğun müəyyənləşdirilmiş məzmun xətlərinin [3] alt standartları əsasında təlimin təşkili üçün kimya müəllimin təhsilverici, tərbiyəedici və inkişafetdirisi funksiyaları ilə yanaşı fasilitatorluq, planlaşdırma, qiymətləndirmə, kommunikativlik, konstruktivlik, proqnozlaşdırma, tədqiqatçılıq, informasiya əldə etmə, əməkdaşlıq (həmkarları ilə təcrübə mübadiləsi aparmaq) və s. kimi müasir bacarıqları da olmalıdır.

Dərsin kurikulum əsasında səmərəli təşkilinin vacib məsələlərindən biri planlaşdırma zamanı standartlarlın düzgün seçilməsi və onlara uyğun təlim nəticələrinin (məqsədlərin), qiymətləndirmə üsul və vasitələrin müəyyənləş-dirilməsidir.

Təqdim olunan məqalə də təlimin əsas tərəflərindən biri olan bu məsələyə həsr edilmiş, VIII sinif kimya kursunda "Kimyəvi hadisələr"məzmun xəttinin alt standartlarına uyğun təlim materiallarının sistemləşdirilməsi məqsədi qarşıya qoyulmudur.

Kimya fənni kurikulumunda VIII sinfin "Kimyəvi hadisələr" məzmun xətti üzrə standartları aşağıdakı kimi verilir:

***Şagird:***

*2.1. Kimyəvi hadisələrin baş vermə səbəblərini, qanunauyğunluqlarını mənimsədiyini nümayiş etdirir.*

2.1.1. Kimyəvi reaksiyaları təsnif edir, qanunauyğunluqlarını izah edir.

*2.2. Kimyəvi reaksiyaların tənliklərini tərtib edir və hesablamalar aparır.*

2.2.1.Mühüm qeyri-üzvi birləşmələrə aid reaksiya tənliklərini tərtib edir.

2.2.2. Mühüm qeyri-üzvi birləşmələrə aid reaksiya tənliklərinə əsasən hesablamalar aparır.

VIII sinfin "Kimyəvi hadisələr" məzmun xəttinə aid alt standartlara uyğun təlim materialının məzmunununa aşağıdakılar aiddir [4,5,6].

***Şagird:***

***2.1.1. Kimyəvi reaksiyaları təsnif edir, qanunauyğunluqlarını izah edir.***

VIII sinif kimya kursu qeyri-üzvi birləşmələrin mühüm siniflərinin tədrisi ilə başlayır. Oksid, əsas, turşu və duzlaraın tərkibi, adlandırılması, alınması üsulları və xassələri ətraflı öyrənilir. Qeyri-üzvi birləşmələrin mühüm siniflərinə aid dərslərdə şagirdlər kimyəvi reaksiyaların əsas tipləri ilə tanış olurlar.

VIII sinfin II tədris vahidində kimyəvi reaksiyalar VII sinifdə verilən məlumatların daha da genişləndirilməsi və dərinləşdirilməsi ilə yenidən öyrənilir. Bu tədris vahidinə aid birinci dərsdə kimyəvi reaksiyaların müxtəlif əlamətlərə görə təsnifatı verilir.

1. Reaksiyaya daxil olan və reaksiya nəticəsində alınan maddələrin sayına və tərkibinə görə (birləşmə, parçalanma, əvəzetmə, dəyişmə və ya mübadilə, onun xüsusi halı olan neytrallaşma reaksiyaları).
2. İstilik effektinə görə (ekzotermik, endotermik reaksiyalar).
3. İstiqamətinə görə (dönməyən və dönən reaksiyalar).
4. Reaksiyada iştirak edən və ya alınan maddələrin aqreqat halına görə (homogen və heterogen reaksiyalar).

Həmin reaksiyaların öyrənilməsi zamanı onların getməsi qanunauyğunluqları nəzərdən keçirilir və müvafiq təcrübələr aparılmaqla şagirdlərin onları dərk etmələri təmin edilir.

***2.2.1. Mühüm qeyri-üzvi birləşmələrə aid reaksiya tənliklərini tərtib edir.***

Kimyəvi reaksiyaların təsnifatına aid olan bütün növ reaksiyalar qeyri-üzvi birləşmələrin mühüm sinifləri olan oksid, əsas, turşu və duzların iştirakı ilə gedir. Şagirdlər onlara aid reaksiyaların tənliklərini tərtib edir, əmsallaşdırır və bir daha biliklərini möhkəmləndirirlər.

***2.2.2. Mühüm qeyri-üzvi birləşmələrə aid reaksiya tənliklərinə əsasən hesablamalar aparır.***

Bu standarta uyğun olan təlim nəticəsi, reaksiya tənlikləri üzrə müxtəlif xarakterli hesablamalar aparmaqdır. Şagirdlər oksid əsas, turşu və duzların alınması və xassələrinə aid reaksiya tənliklərini tərtib edərək onlara aid məsələ həll edirlər. Bu tip məsələlərə aid tapşırıqlar gündəlik dərslərdə, eyni zamanda tədris vahidinə aid kiçik summativ qiymətləndirmədə də verilə bilər.

VIII sinif üzrə kimyəvi reaksiyalara aid tədris vahidində onların sürəti və kimyəvi tarazlıq da aid edilir. Bu baxımdan da həmin mövzulara aid dərslərdə də

şagirdlər 2.2.1. və 2.2.2. alt standartlarına uyğun qoyulan məqsədlərə müvafiq olaraq müxtəlif xarakterli reaksiya tənliklərini tərtib edir, onların qanunauyğunluqlarını araşdırır və hesablamalar aparırlar.

Kursun sonrakı tədris vahidlərində şagirdlər kimyəvi reaksiyaların digər növləri ilə tanış olurlar. Kimyəvi rabitə barədə şagirdlər məlumat əldə etdikdən sonra kimyəvi reaksiyalara elektron nəzəriyyəsi baxımından yanaşılır və oksidləşmə-reduksiya reaksiyaları ilə yenidən (VII sinifdə sadə şəkildə məlumat əldə etmişlər) daha ətraflı tanış olurlar. Həmin reaksiyaların növləri, onlara aid tənliklərin tərtib edilməsi, əmsallaşdırılması kimi bilik və bacarıqların əldə edilməsi ilə şagirdlərin təsəvvürləri genişlənir.

VIII sinifdə həmçinin elektrolitik dissosiasiya nəzəriyyəsininə aid tədris materialının mənimsədilməsindən sonra şagirdlər ion mübadiləsi reaksiyaları ilə tanış edillir. Bu mərhələdə artıq şagirdlər kimyəvi reaksiyaların əsl mahiyyətini öyrənirlər və onların əvvəlki dərslərdə əldə etdikləri bilikləri dərinləşir və möhkəmlənir. Onlar dərk edirlər ki, sulu elektrolitik məhlullarda reaksiya ionlar srasında gedir. Onların birləşməsi nəticəsində çöküntü, qaz və az dissosiasiya edən maddələr alınarsa reaksiya axıra qədər getmiş hesab olunur. Bu mərhələdə şagirdlər ion mübadiləsi reaksiyalarının molekulyar, tam və qısa ion tənliklərinin tərtib etməyi öyrənirlər.

Elektrolizə aid dərslərdə şagirdlər yeni qanunauyğunluqlarla tanış olurlar. Onlar dərk edirlər ki, duzların, qələvilərin suda məhlullarının elektrolizi zamanı katodda və anodda hansı maddənin alınmasını kation və anionların fəallıq sırası ilə müəyyən etmək olar. Katodda və anodda baş verən proseslərin mahiyyətini isə əvvəlki dərslərdən əldə etdikləri oksidləşmə-reduksiya reaksiyalarına aid biliklər əsasında izah etmək olar.

Kursun sonunda verilən hidrolizə aid tədris materiallarında şagirdlərin VIII sinifdə keçdikləri biliklərinin yada salınması zərurəti yaranır. Onlar xüsusilə də duzlara və ion mübadiləsi reaksiyalarına aid məlumatlar əsasında hidroliz reaksiyalarının qanunauyğunluqlarını müəyyənləşdirirlər. Şagirdlər hidrolizin getməsi şərtləri ilə tanış olur, duzun təbiətindən asılı olaraq hansı mühitin alınmasını dərk edir və reaksiyaların molekulyar, tam və qısa ion tənliklərini tərtib etməyi bacarırlar. Beləliklə də "Elektrolitik dissosiasiya. Elektroliz. Hidroliz" tədris vahidinə aid bütün dərslərin təlim nəticələri "Kimyəvi hadisələr" məzmun xəttinin alt standartlarının reallaşdırılması ilə əldə edilir.

Kimya fənni kurikulumunun VIII sinfə aid olan "Kimyəvi hadisələr" məzmun xəttinin alt standartlarına aid təlim materiallarının mənimsənilməsi nəticəsində şagirdlər aşağıdakı bilik və bacarıqlara nail olurlar.

***Şagird:***

**Bilir:**

- qeyri-üzvi birləşmələrin mühüm siniflərinin alınması üsullarına və kimyəvi

xassələrinə aid reaksiyaları və onların qanunauyğunluqlarını;
- qeyri-üzvi birləşmələrin mühüm siniflərini arasında genetik əlaqənin yaradılması qanunauyğunluqlarını və reaksiyaların mahiyyətini;
- kimyəvi reaksiyaların müxtəlif əlamətlərə görə təsnifatını;
- müxtəlif xarakterli kimyəvi reaksiyaların baş vermə səbəblərini, onların getməsi qanunauyğunluqlarını;
- dönməyən reaksiyaların axıra qədər getməsi şərtlərini;
- dönən reaksiyaların tarazlıq halının alınması, düzünə və əksinə yönəldilməsi şərtlərini;
- oksidləşmə-reduksiya reaksiyalarının mahiyyətini, onların əmsallaşdırılması ardıcıllığını;
- oksidləşmə-reduksiya reaksiyalarının növlərini və xüsusi hallarını;
- dissosiasiya prosesinin, elektrolit məhlullarında baş verən reaksiyaların mahiyyətini;
- turşu, əsas və duzların dissosiasiyasına aid reaksiyaları;
- ion mübadiləsi reaksiyalarının mahiyyətini, onların molekulyar, tam və qısa ion tənliklərini;
- kationların və anionların fəallıq sırasını;
- elektrolitlərin əridAfter dikdə və suda məhlulda elektrolizi zamanı baş verən reaksiyaların mahiyyətini;
- duzların hidrolizi reaksiyalarının qanunauyğunluqlarını.

**Bacarır:**
- qeyri-üzvi birləşmələrin mühüm siniflərinin alınması və xassələrinə aid reaksiya tənliklərini tərtib etməyi və onlara aid müxtəliv xarakterli çalışma və məsələ həll etməyi;
- kimyəvi reaksiyaları müxtəlif əlamətlərə görə təsnif etməyi, onlara aid reaksiya tənliklərini tərtib etməyi və hesablamalar aparmağı;
- elektrolitlərin dissosiasiyası tənliklərini tərtib etməyi və onlara aid hesablamalar aparmağı;
- turşu,əsas və duzların dissosiasiya tənliklərini tərtib etməyi;
- ion mübadiləsi reaksiyalarının mahiyyətini izah etməyi. onların molekulyar, tam və qısa ion tənliklərin tərtib etməyi;
- kation və anionların fəallıqları ardıcıllığına əsasən elektrolitlərin suda məhlullarının elektrolizi zamanı katodda və anodda hansı maddələrin alınması barədə proqnoz verməyi;
- elektrolitlərin əridildikdə və suda məhlulda elektrolizinə aid reaksiya tənliklərini tərtib etməyi;
- hidroliz edib-etməmələrinə görə duzları qruplaşdırmağı;
- duzların təbiətindən asılı olaraq, onların hidrolizi zamanı hansı mühitin

yaranmasını proqnozlaşdırmağı;

- duzların hidrolizinə aid reaksiyaların molekulyar, tam və qısa ion tənliklərini tərtib etməyi.

## İstifadə edilmiş ədəbiyyat:


1. "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)". "Kurikulum" jurnalı, 2008 №1
2. "Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları)". "Kurikulum" jurnalı. 2010, №3.
3. M.Abbasov, A.Əliyev, M.Fərəcov, V.Əliyev. Ümumtəhsil məktəbləri üçün kimya fənni üzrə təhsil proqramı (kurikulumu). (VII-XI siniflər üçün). Kimya məktəbdə jurnalı 2-3(46-47)2014. səh.4-148.
4. R.Əliyeva, V.Abbasov, A.Məhərrəmov, M.Abbasov və başqaları. Kimya. Ümumtəhsil məktəblərinin 8-ci sinif üçün dərslik. "Aspoliqraf" Bakı, 2015. 200 s.
5. M.Abbasov, A.Əliyev. Kimya. Ümumtəhsil məktəblərinin 8-ci sinif üçün metodiki vəsait. "Aspoliqraf", Bakı, 2015, 195 s.
6. Г.Е. Рудзитис, Ф.Г. Фельдман. Химия. Неорганическая химия. 8 класс. 2016, 207 с.

*А.З.Мамедова*

**Методика реализации подстандартов линии содержания «Химические явления» в химическом курсе VIII класса**

**РЕЗЮМЕ**

В статье говорится о некоторых современных способностях педагога для организации обучения по предметному куррикулумому, отмечается, что одним из главных вопросов в подготовке учебного плана – выбор стандартов, соответствующих содержанию, и определение на их основе результатов обучения, способов и средств оценки. Для разъяснения сказанного, представлена методика систематизации материалов обучения по подстандартам линии содержания "Химические явления" предметного куррикулумома по химии VIII класса.

*A.Z.Mammadova*

**The method of implementation of the substandards of the line of content "Chemical phenomena" in the chemical course in VIII class**

**SUMMARY**

The article describes some of the modern abilities of a teacher to organize training on a subject curriculum. It is noted that one of the main issues in preparing a curriculum is the choice of standards that correspond to the content and the definition of learning outcomes, assessment methods and tools based on them. To clarify the above, a method of systematization of teaching materials according to sub-standards of the content line "Chemical phenomena" of the subject curriculum in chemistry of the eighth grade is presented.

**Açar sözlər:** kurikulum, məzmun xətti, alt standart, kimyəvi reaksiya, oksidləşmə, hidroliz, elektroliz

**Ключевые слова:** куррикулум, линия содержания, подстандарт, химическая реакция, окисление, гидролиз, электролиз

**Key words:** curriculum, content line, substandard, chemical reaction, oxidation, hydrolysis, electrolysis.